© E.S.Bədəlov, 2013

# ABŞERON İQTİSADİ RAYONUNDA ŞƏHƏR MƏSKUNLAŞMASININ PROBLEMLƏRİ

**E.S.Bədəlov**

*Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*Az 1143, Bakı, H.Cavid prosp., 31*

Abşeron iqtisadi rayonunda yüksək urbanizasiya intensiv şəhərsalma prosesləri ilə müşayiət olunur. İqtisadi rayonda ölkənin ümumi əhalisinin 28,7%-i, o cümlədən şəhər əhalisinin 53,4%-i yaşayır. Bakı aqlomerasiyası, əhalisinin sayı 2,6 milyon nəfər olmaqla, böyük məskunlaşma mərkəzinə çevrilib, Sumqayıt və Xırdalan kimi peyk şəhərlərini və 70-ə yaxın qəsəbəni birləşdirir. Müasir dövrdə neft-qaz sənayesinin inkişafi bu ərazidə istehsalın təmərküzləşməsinə və infrastrukturun formalaşmasına təkan verərək aqlomerasiyanın davamlı inkişafına və demoqrafik proseslərin sürətlənməsinə səbəb olmuşdur.

Azərbaycanda şəhər məskunlaşmasının inkişafını təbii və iqtisadi-sosial potensial, iqtisadi-coğrafi mövqe, nəqliyyat kimi amillər müəyyən edir. Bakı neft sənayesinin inkişafı əsasında XIX əsrin sonunda böyük bir şəhər kimi, XX əsrin əvvəllərində isə şəhər aqlomerasiyası kimi dinamik inkişaf etmişdir. Neft-qaz hasilatının müasir dövrdə yenidən yüksəlişi, bu sənayenin bazasında fəaliyyətdə olan, ona xidmət edən istehsal və sosial infrastruktur şəbəkəsinin inkişafı Bakı aqlomerasiyasında şəhər məskunlaşmasını yeni modernləşmə mərhələsinə keçirmişdir. Bakının Xəzərin sahilində ən böyük liman və paytaxt statusunu yerinə yetirməsi, mühüm nəqliyyat qovşağı olması təbii-coğrafi şəraitlə birlikdə Abşeronun iqtisadi-coğrafi mövqeyini əlverişli edir.

Abşeron iqtisadi rayonunun sahəsi 5420 km$^2$ olub, 2012-ci ildə əhalisi 2651,4 min nəfər, o cümlədən şəhər əhalisi 2610,2 min nəfər təşkil etmişdir (Azərb. əhalisi..., 2012). İqtisadi rayonun urbanizasiya səviyyəsi 98,5%, ölkənin bütün şəhər əhalisinə görə payı isə 53,4%-dir. Regionda şəhər əhalisinin 60,3%-i şəhərlərdə, 39,7%-i qəsəbələrdə yaşayır. İqtisadi rayonun bütün şəhər əhalisində Böyük Bakının payı 81,3%, o cümlədən ancaq şəhərin payı 45,8%, qəsəbələrin payı isə 35,5%-ə bərabərdir (1-ci cədvəl). Abşeron iqtisadi rayonunun tərkibində 1990-cı ildə Xızı inzibati rayonu yaradılmış, 1991-ci ildə Xızı, Altıağac, Giləzi və Şurabad kəndlərinə qəsəbə statusu verilmişdir. 1990-cı ildə Bakının Nizami rayonunda yerləşən Keşlə, Səbail rayonundakı Badamdar, Xəzər rayonunda Şağan və Qaradağ rayonunda salınan Müşviqabad qəsəbə statusu aldı. İqtisadi rayonda yerləşən 72 qəsəbədən 59-u Bakı şəhər ərazi dairəsinə (ə/d), ikisi Sumqayıt şəhər ə/d-nə, yeddisi Abşeron rayonuna və üçü Xızı rayonuna aiddir. Binəqədi rayonunda Sulutəpə və 28 May, Qaradağ rayonunda Ümid, Kotal, Baş Ələt, Şıxlar və Heybət, Abşeron rayonunda Mehdiabad və Aşağı Güzdək qəsəbələri yeni salınmışdır. Xırdalana 2006-cı ildə, Xızı qəsəbəsinə 2008-ci ildə şəhər statusu verilmişdir. 2012-ci ildə iqtisadi rayonda 4 şəhər olmuşdur (Bədəlov, 2013a).

Müasir dövrdə Abşeron iqtisadi rayonunda urbanizasiyanın ərazi strukturunun tədqiqi göstərir ki, Bakı aqlomerasiyasında "yalançı urbanizasiya" prosesi, yəni şəhərətrafı qəsəbələrdə əhali artımı daha sürətlə gedir. İndiyə qədər Abşeronun qəsəbələri Bakı və Sumqayıt üçün əmək ehtiyatları bazası rolunu oynayırdısa, 2000-ci illərdə qəsəbələrdə yeni istehsal və xidmət sahələrinin, nəqliyyat-kommunikasiya sistemlərinin yaradılması, enerji, su, qaz, istilik təminatının yenidən qurulması şəhərətrafı məskunlaşmanın daha sürətlə inkişafına təkan vermişdir. Bakı şəhərinin mərkəzində yenidənqurma işlərinə görə seliteb sahələr (tikinti üçün yerlər) azalır, yerində isə mədəni landşafta aid olan istirahət parkları, xiyabanlar, fəvvarələr, idman-sağlamlıq mərkəzləri salınır. Şəhərin Nizami, Xətai və Nərimanov rayonlarında olan və geniş əraziləri tutan istehsal müəssisələrinin şəhərətrafı qəsəbələrə köçürülməsi prosesi həyata keçirilir. Bakının Qaraşəhər ərazisində Ağ şəhərin salınması bu tədbirlərin bir hissəsidir. Son illərdə iqtisadi rayonlar üzrə sənayenin ərazi strukturunda baş verən dəyişikliklər Abşeronun rolunun artması ilə nəticələnmişdir.

*1-ci cədvəl*

İqtisadi rayonun şəhər və qəsəbələrində əhalinin sayı (min nəfərlə)

| İnzibati ərazilər | 1999 | | 2009 | | 2012 | | 1999-2012 | | Əhali artımında payı,% |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Əhalinin sayı | Payı, % | Əhalinin sayı | Payı, %-lə | Əhalinin sayı | Payı, %-lə | Artım, dəfə | Artım tempi, saya görə | |
| Böyük Bakı | 1789,1 | 83,7 | 2045,8 | 81,2 | 2122,3 | 81,3 | 1,19 | 333,2 | 70,6 |
| Bakı ş. | 1084,5 | 50,7 | 1140,8 | 42,3 | 1194,8 | 45,8 | 1,10 | 110,3 | 23,4 |
| Qəsəbələr | 704,6 | 33,0 | 905,0 | 35,9 | 927,5 | 35,5 | 1,32 | 222,9 | 47,2 |
| Sumqayıt ş. ə/d | 283,2 | 13,2 | 309,5 | 12,3 | 318,7 | 12,2 | 1,13 | 35,5 | 7,5 |
| Sumqayıt ş. | 256,8 | 12,0 | 276,1 | 11,0 | 284,6 | 10,9 | 1,11 | 27,8 | 5,9 |
| Qəsəbələr | 26,4 | 1,2 | 33,4 | 1,3 | 34,1 | 1,3 | 1,29 | 7,7 | 1,6 |
| Abşeron r-nu | 58,8 | 2,8 | 157,4 | 6,2 | 161,5 | 6,2 | 2,75 | 102,7 | 21,8 |
| Xırdalan ş. | - | - | 91,6 | 3,6 | 93,6 | 3,6 | - | - | - |
| Qəsəbələr | 58,8 | 2,8 | 65,8 | 2,6 | 67,9 | 2,6 | - | - | - |
| Xızı rayonu | 7,0 | 0,3 | 7,5 | 0,3 | 7,7 | 0,3 | 1,10 | 0,7 | 0,1 |
| Şəhər əhalisi | - | - | 1,3 | 0,05 | 1,3 | 0,05 | - | - | - |
| Qəsəbələr | 7,0 | 0,3 | 6,2 | 0,25 | 6,4 | 0,25 | - | - | - |
| İqtisadi rayon | 2138,1 | 100 | 2520,2 | 100 | 2610,2 | 100 | 1,22 | 472,1 | 100 |
| Şəhər əhalisi | 1341,3 | 62,7 | 1509,8 | 59,9 | 1574,3 | 60,3 | 1,17 | 233,0 | 49,3 |
| Qəsəbələr | 796,8 | 37,3 | 1010,4 | 40,1 | 1035,9 | 39,7 | 1,30 | 239,1 | 50,7 |
| Azərbaycan R. | 4053,6 | 100 | 4739,1 | 100 | 4888,7 | 100 | 1,21 | 835,1 | 100 |
| Şəhər əhalisi | 3073,6 | 75,8 | 3696,5 | 78 | 3617,6 | 74 | 1,18 | 544,0 | 65,1 |
| Qəsəbələr | 980,0 | 24,2 | 1042,6 | 22,0 | 1271,1 | 26 | 1,30 | 291,1 | 34,9 |

Cədvəlin tərtibində "Azərbaycan Respublikası əhalisinin 1999, 2009-cu illərin siyahıyaalma materialları, DSK 2012" statistik məcmuələrindən istifadə edilmişdir.

Abşeronda şəhər məskunlaşmasının inkişafının sürətlə getməsi və 2005-ci ildən sonra iqtisadi islahatlar aparılması 2006-cı ildə "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı", 2009-cu ildə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" və "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlıdır (Bakı şəhərinin..., 2013). Abşeron iqtisadi rayonunda müasir dövrün tələblərinə cavab verən nəqliyyat-kommunikasiya sistemi, yeni istehsal və xidmət sahələrinin yaradılması, onların xammal, enerji, istilik, təbii qaz və su təminatı, anbar xidmətinin yüksək səviyyədə qurulması davamlı olaraq dövlət tərəfindən proqramların həyata keçirilməsi ilə əlaqədar olmuşdur. Bakıda və ətraf rayonlarda tikinti-quruculuq işlərinin genişləndirilməsi, sənaye obyektlərinin burada cəmlənməsi ölkənin sənaye potensialının 90%-dən çoxunun, bu sahədə çalışanların isə 70%-nin burada yerləşməsinə səbəb olmuşdur. Xüsusilə neft-qaz sənayesinin inkişafı və hasilatının artımı sənayenin əksər sahələrinin Abşeronda cəmlənməsinə şərait yaradan əsas amillərdir (Eminov, 2010). Bu səbəbdən xarici şirkətlərin maliyyə-texniki yardımı və iştirakı ilə yaradılan müəssisələrin əksəriyyəti, ölkənin əsas istehsal fondlarının çoxu məhz bu ərazidə cəmlənmişdir. Ölkə üzrə sənaye məhsulu istehsalında Abşeron iqtisadi rayonunun payı sovet dövrünün sonunda 70% olmuşdursa, 2000-ci ildə 85,9%-ə və 2010-cu ildə 91,3%-ə yüksəlmişdir. Lakin belə yüksəliş sənayenin strukturunda hasilat sənayesinin payının 80%-i keçməsi, emal sahələrinin payının isə son 10 ildə 2 dəfə azalaraq 20%-ə qədər azalması ilə bağlı olmuşdur (Eminov, 2010). Abşeronda emal sənayesinin rolunun azalması təsərrüfatın neftdən asılılığının artmasına səbəb olur. Bunun aradan qaldırılması üçün təkcə Abşeronda deyil, digər regionlarda da əməktutumlu müəssisələrin yaradılması işləri sürətlənməlidir.

Təhlillərdən aydın olur ki, istehsal, xidmət, ticarət, həmçinin elm, maarif-mədəniyyət, idman, səhiyyə və digər sahələrin Abşeronda cəmlənərək yüksək inkişafı məşğulluğun yüksəlməsinə və əhalinin burada təmərküzləşməsinə səbəb olmuş-

dur. Təxmini hesablamalara görə, regionda əhalinin sayı statistik göstəricilərdən 2 dəfə çoxdur. Təkcə Bakı şəhəri ə/d-də 500 mindən artıq şəxsi ev qeydiyyata alınmamışdır. Bu isə 1,5-2,0 milyon nəfərdən çox əhali deməkdir. Belə monosentrik məskunlaşma şəhərin idarə edilməsində əlavə problemlər yaradır.

Bakı və Sumqayıtda şəhəryaradıcı təsərrüfat sahələrinin, qeyri-istehsal müəssisələrinin, ticarət mərkəzlərinin inkişafı ilə bağlı olaraq, şəhərətrafı ərazilərə işçi qüvvəsinin miqrasiyası artmışdır. Təsərrüfat sahələrinin yerləşmə xüsusiyyətindən və intensiv inkişafından asılı olaraq Bakı ətrafında yerləşən qəsəbə və şəhərlərin sürətlə böyüməsi baş verir.

İqtisadi rayonda şəhər məskunlaşmasına və əhalinin sayının artımına birbaşa təsir edən demoqrafik proseslər onun təbii və mexaniki hərəkətidir. Sovet dövrünün sonunda başlanan milli münaqişə və Qarabağ müharibəsi, torpaqların bir hissəsinin işğal olunması həm xarici, həm də daxili miqrasiya proseslərini sürətləndirdi. 1989-1990-cı illərdə Ermənistandan Bakıya gələn immiqrantlar 163 min nəfər idi və onların tam böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Gedən emiqrantların sayı 179 min nəfər olmuşdur, onların əksəriyyətini ermənilər (88,7 min nəfər), ruslar (46,8 min nəfər), ukraynalılar (3,6 min nəfər), yəhudilər (6,3 min nəfər), yəni əsasən rusdilli əhali təşkil edirdi. Miqrasiya saldosu cəmi -16 min nəfər olmuşdur. Bu illərdə iqtisadi rayona gələnlər 186,1 min nəfər, gedənlər 200 min nəfər, miqrasiya saldosu -13,8 min nəfər olmuşdur. Sumqayıtda miqrasiya saldosu cəmi 0,8 min nəfər, Abşeron rayonunda isə 1,4 min nəfər artmışdır (Некоторые демографические…, 1991).

1991-1995-ci illərdə miqrasiya saldosu Bakıda -123,6 min nəfər, iqtisadi rayonda -134,9 min nəfər; 1996-2000-ci illərdə Bakıda -39,1 min nəfər, iqtisadi rayonda -44 min nəfər olmuşdur. 1991-2000-ci illər ərzində miqrasiya saldosu Bakıda -162,7, iqtisadi rayonda 181,1 min nəfər, Sumqayıtda -15,2 min nəfər qeydə alınmışdır (Eminov, 2005). Bu təhlillərə görə, 1990-cı illərin ortalarına kimi miqrasiya saldosu 1996-2000-ci illərin göstəricilərindən 3 dəfə artıq olmuşdur. 1989-cu və 1999-cu illərin siyahıyaalma materiallarında əhalinin milli tərkibinin dəyişilməsi real vəziyyəti göstərir. Əgər 1989-cu ildə Abşeron iqtisadi rayonunda rusların sayı 327,7 min nəfər, ermənilərin sayı 185,5 min nəfər, yəhudilər 24,7 min nəfər idisə, 1999-cu ildə rusların sayı 124,9 min nəfər, ermənilər 406 nəfər, yəhudilər 5,2 min nəfər olmuşdur (Azərbaycan Respublikası..., 2000; Eminov, 2005).

Bununla əlaqədar Bakının şəhərdaxili rayonlarında rusdilli əhalinin çox olması ilə bağlı şəhər əhalisinin sayı 1989-cu ildən 1999-cu ilədək 1190,3 min nəfərdən 1084 min nəfərədək azalmış, şəhərətrafı qəsəbələrdə isə, əksinə, 604,6 min nəfərdən 704,6 min nəfərədək artmışdır (Bədəlov, 2013b). Abşeron iqtisadi rayonunda miqrasiya saldosu 2001-2005-ci illərdə 7,8 min nəfər, o cümlədən Bakı ə/d-də 5,3 min nəfər, Abşeron rayonunda 5,1 min nəfər artımla, Sumqayıt ə/d-də isə 2,8 min nəfər azalma ilə müşayiət olunmuşdur. 2006-2010-cu illərdə isə miqrasiya saldosu iqtisadi rayonda 213 min nəfər, o cümlədən Bakı ə/d-də 114,4 min nəfər, Sumqayıt ə/d-də 4,8 min nəfər, Abşeron rayonunda 93,5 min nəfər artımla fərqlənmişdir.

Əhalinin sayının artımına təsir edən əsas amillərdən biri də təbii artım prosesidir. 1991-ci ildə hər 1000 nəfərə görə təbii artımın əmsalı Bakıda 13,4, Sumqayıtda 20,2, Abşeron rayonunun şəhər əhalisinə görə 23,8 olduğu halda, 2000-ci ildə bu göstəricilər 2,5 dəfəyədək azalaraq Bakıda 5,8, Sumqayıtda 8,1, Abşeron rayonunda isə 10 olmuşdur (şəkil). Son dövrlərdə əhalinin təbii artımının hər 1000 nəfərə görə əmsalı artaraq 2011-ci ildə Bakı ə/d-də 11,8 olsa da, Sumqayıtda 10,6-ya və Abşeron rayonunda 7,9-dək azalmışdır. Bakıda təbii artım əmsalı ölkənin şəhər əhalisinin göstəricisi ilə eyni olmuşdur. Əhalinin təbii artımının ilkin mərhələdə azalması bu dövrdə baş verən müharibə, iqtisadiyyatın böhranlı vəziyyəti, məşğulluğun azalması, əhalinin maddi-sosial vəziyyətinin pisləşməsi və s. amillərin təsiri ilə baş verirdi. 2000-ci illərdə isə təsərrüfatın inkişafı məşğulluğun artmasında və təbii artımda sosial-iqtisadi və milli-etnik amillərin rolunu yüksəltmişdir. 2000-ci ilə qədər əhalinin təbii artımı iqtisadi rayonda 193,4 min nəfər, o cümlədən Bakıda 146,1 min nəfər, Sumqayıtda 34,6 min nəfər, Abşeron rayonunda 11,3 min nəfər olduğu halda, 2001-2011-ci illər ərzində isə iqtisadi rayonda 232,6 min nəfər, o cümlədən Bakıda 190,4 min nəfər, Sumqayıtda 29,3 min nəfər, Abşeron rayonunda 11,6 min nəfər olmuşdur.

Bu təhlillərdən aydın olur ki, əhalinin təbii artımı saya görə Bakıda son vaxtlarda daha sürətli olmuş, Sumqayıtda isə, əksinə, azalma ilə fərqlənmişdir.




İqtisadi rayonda təbii artımın əmsalları, hər 1000 nəfərə görə

Müstəqillik dövründə baş verən demoqrafik prosesləri 2 mərhələyə, yəni 1991-2000-ci illəri əhatə edən birinci, 2001-2011-ci illəri əhatə edən ikinci mərhələyə ayırmaq olar. Müstəqillik dövrünün I mərhələsi rusdilli əhalinin köçüb getməsi, gələnlərin əksəriyyətinin isə qaçqın və köçkünlərdən ibarət olması ilə səciyyələnirdi. Təbii artım miqrasiya saldosunda olan azalmanı üstələmişdir. II mərhələ isə miqrasiyanın sürətli artımı, dövlət proqramlarının həyata keçməsi ilə bağlı Azərbaycanın əksər rayonlarından gələn əhalinin hesabına olmuşdur. Əhalinin təbii artımındakı sürətli yüksəliş isə rayonlardan gələn gənclərin ailə qurması ilə bağlı olmuşdur.

İqtisadi rayonda 1999-2012-ci illər ərzində şəhər əhalisinin artım tempi ölkə göstəricisini üstələmişdir. Qəsəbələrin əhalisinin artımı daha yüksək olmuşdur. 1999-2012-ci illər ərzində şəhər əhalisinin ümumi sayında Böyük Bakının payı 2,4 vahid azaldığı halda, Bakının payı 4,9 vahid azalmış, qəsəbələrin payı isə, əksinə, 2,5 vahid artmışdır. Sumqayıtın payı 1,0 vahid azalsa da, Abşeron rayonunun payı 3,4 vahid artmışdır (1-ci cədvəl). 1999-cu ildən 2012-ci ilədək olan dövrdə ölkənin bütün şəhər əhalisinin artımında iqtisadi rayonun payı 56,5% olduğu halda, şəhərə görə artım 42,8%, qəsəbə əhalisinin artımı 82,1% təşkil etmişdir. İqtisadi rayonun şəhər əhalisinin ən böyük artım tempi Abşeron rayonunda və qəsəbələrdə olmuşdur. Şəhər əhalisinin sayının artımında ən çox paya Bakının qəsəbələri malik olmuşdur, şəhərin özü isə onlardan 2 dəfə az paya malikdir.

Müasir dövrdə iqtisadi rayonun şəhər əhalisinin tərkibində Bakı və Sumqayıt şəhərlərinin payı yarıdan çox olduğu halda, əhali sayının artımının ¼-ni təşkil edir. Bunun əksinə, iqtisadi rayonda qəsəbələrin əhalisinin sürətli artımı bütün şəhər əhalisinə görə payın 40%-dək yüksəlməsinə səbəb olmuşdur. Bakı şəhəri ilə müqayisədə şəhərətrafı qəsəbələrdə iş yerlərinin və əhalinin daha sürətlə artımı baş verir. İqtisadi rayonda şəhərətrafı qəsəbələrin əhalisinin sürətli artımı şəhər əhalisində Bakının xüsusi çəkisinin azalmasına səbəb olmuşdur. Əgər 1939-cu ildə Abşeronun bütün şəhər əhalisinin 77,4%-i Bakıda yaşayırdısa, 1959-cu ildə 62,8%-i, 1986-cı ildə isə 55,6%-i yaşamışdır (Mehrəliyev və b., 1988). Bakı şəhərinin payı 1999-cu ildə 50,7%-dək, 2012-ci ildə isə 45,8%-dək azalmışdır (1-ci cədvəl).

1989-1999-cu illər ərzində Bakının əksər qəsəbələrində, xüsusilə Qaraçuxur, Hövsan, Əmircan, Yeni Suraxanı, Rəsulzadə, Biləcəri, Lökbatan və Zabratda əhalinin sayı sürətlə artmış, Bakıxanov, Maştağa, Sabunçu, Pirallahı və Mərdəkanda isə, əksinə, azalmışdır (Eminov, 2005). Əmircanda əhalinin artımı Suraxanı qəsəbəsinin ləğv edilərək onun tərkibinə verilməsi ilə, Mərdəkanda əhalinin azalması isə onun tərkibində olan Şağana qəsəbə statusu verilməsi ilə bağlıdır. Bakıxanov, Sabunçu və Pirallahı qəsəbələrində rusdilli əhalinin miqrasiyası onlarda əhali sayının azalmasına səbəb olmuşdur (2-ci cədvəl). 1999-2012-ci illər ərzində əhalinin sayının ən aşağı artım tempi Bakı və Sumqayıt şəhərlərində, həmçinin Bakıxanov, Maştağa, Hövsan və Sahil qəsəbələrində olmuşdur. Ən böyük artım tempi ilə Xırdalan şəhəri, Binə, Binəqədi, Badamdar, Mərdəkan, Bülbülə, Sabunçu və Zabrat qəsəbələri fərqlənmişlər. Şəhərdən 10-25 km aralıda yerləşən qəsəbələrdə əhalinin artımı şəhərə yaxın yerləşən qəsəbələrə nisbətdə daha çox olmuşdur. Əhalinin mütləq sayının artımı 20 min nəfərdən çox olanlardan - Xırdalan, Binə, Sumqayıt və Binəqədi fərqlənmiş. Artımı 10 min nəfərdən artıq olan qəsəbələr isə Qaraçuxur, Badamdar və Sabunçudur. Digər qəsəbələrin çoxunda 5-10 min nəfərədək artım olmuşdur. Böyük qəsəbələrin əksəriyyəti Bakı ərazi dairəsində yerləşir. Bunların 5-i Sabunçu, 4-ü Suraxanı, 3-ü Binəqədi rayonundadır. Xəzər və Qaradağ rayonlarının hər birində 2 böyük qəsəbə vardır.

*2-ci cədvəl*

Əhalisi 20 min nəfərdən çox olan şəhərlər və yaşayış məntəqələri

| Şəhər və qəsəbələr | Əhalinin sayı, min nəfər | | | Artım səviyyəsi, dəfə | Min nəfər |
|---|---|---|---|---|---|
| | 1999 | 2009 | 2012 | 1999-2012 | |
| Bakı | 1084,5 | 1114,1 | 1194,8 | 1,10 | 110,3 |
| Sumqayıt | 256,8 | 276,1 | 284,6 | 1,11 | 27,8 |
| Xırdalan | 28,6 | 91,6 | 93,6 | 3,27 | 65,0 |
| Qaraçuxur | 69,0 | 77,4 | 81,1 | 1,18 | 12,1 |
| Bakıxanov | 64,3 | 67,6 | 70,6 | 1,10 | 6,3 |
| Binə | 23,5 | 52,4 | 54,0 | 2,30 | 30,5 |
| Rəsulzadə | 41,8 | 47,3 | 49,5 | 1,18 | 7,7 |
| Biləcəri | 40,0 | 44,1 | 45,8 | 1,15 | 5,8 |
| Maştağa | 38,9 | 41,7 | 43,1 | 1,11 | 4,2 |
| Hövsan | 35,1 | 37,3 | 38,9 | 1,11 | 3,8 |
| Binəqədi | 15,5 | 36,5 | 37,4 | 2,41 | 21,9 |
| Lökbatan | 29,3 | 34,2 | 35,8 | 1,22 | 6,5 |
| Sabunçu | 20,4 | 30,1 | 31,1 | 1,53 | 10,7 |
| Əmircan | 25,6 | 28,9 | 29,8 | 1,16 | 4,2 |
| Buzovna | 24,3 | 28,7 | 29,7 | 1,22 | 5,4 |
| Zabrat | 20,8 | 26,8 | 27,7 | 1,33 | 6,9 |
| Bülbülə | 15,8 | 23,5 | 24,2 | 1,53 | 8,4 |
| Mərdəkan | 14,6 | 22,5 | 23,3 | 1,60 | 8,7 |
| Sahil | 21,0 | 22,5 | 23,3 | 1,11 | 2,3 |
| Keşlə | 17,3 | 22,7 | 23,1 | 1,34 | 5,8 |
| Badamdar | 10,9 | 21,3 | 21,6 | 1,98 | 10,7 |
| Tağıyev | 18,1 | 20,7 | 21,2 | 1,17 | 3,1 |

Cədvəlin tərtibində "Azərbaycan Respublikası əhalisinin 1999, 2009-cu illərin siyahıyaalma materialları, DSK 2012" statistik məcmuələrindən istifadə edilmişdir.

1999-2012-ci illərdə şəhər və qəsəbələrdə əhalinin artımı daha sürətlə getmişdir. 1999-cu ildə Bakıxanov və Qaraçuxurda əhalinin sayı 50 min nəfərdən çox idi. 2012-ci ildə bu qrupa Binə aid olmuş və onlarda əhalinin sayı 133,4 min nəfərdən 205,7 min nəfərədək, payları isə 18,9%-dən 19,7%-dək artmışdır. Əhalinin sayı 20 min nəfərdən 50 min nəfərədək olan qəsəbələrin sayı 12-dən 16-ya qədər, əhalinin sayı 349,2 min nəfərdən 505,4 min nəfərədək yüksəlmişdir. Bu qəsəbələrdən əhalisinin sayı 40-50 min nəfərədək olan Rəsulzadə, Biləcəri və Maştağa, 30-40 min nəfərədək olan Hövsan, Binəqədi, Lökbatan, Sabunçu, 20-30 min nəfərədək olan Əmircan, Buzovna, Zabrat, Bülbülə, Mərdəkan, Sahil, Keşlə, Badamdar və H.Z.Tağıyev olmuşdur. Bu böyük qəsəbələrin payı ölkə və iqtisadi rayonun bütün qəsəbə əhalisinə görə müvafiq olaraq 46,3%-dən 55,9%-dək və 62,8%-dən 71%-dək yüksəlmişdir. Ölkədə olan bütün böyük qəsəbələr Abşeronda cəmlənmişdir. 1999-2012-ci illər ərzində əhalisi 10 min nəfərdən 20 min nəfərədək olan qəsəbələrin sayı 11-dən 15-ə kimi və onlarda olan əhalinin sayı 169,5 min nəfərdən 211,5 min nəfərədək artsa da, payları 21,3%-dən 20,2%-dək azalmışdır. Bunun səbəbi əhalinin sayı 20 mindən 50 min nəfərədək olan qəsəbələrdə əhalinin sürətlə artmasıdır. Əhalisinin sayı 5 mindən 10 min nəfərədək olan qəsəbələrin sayı 12-dən 9-dək, onlarda məskunlaşmış əhalinin sayı 93,5 min nəfərdən 72,4 min nəfərədək, payları 11,7%-dən 7%-dək azalmışdır. Əhalinin sayı 3 mindən 5 min nəfərədək olan qəsəbələrin sayı 7-dən 8-ə, onlarda olan əhalinin sayı 26,9 min nəfərdən 31,5 min nəfərədək artsa da, payları 3,4%-dən 3%-dək azalmışdır. Təhlil olunan qruplardan 2012-ci ildə əhalisinin sayı 10 min nəfərdən çox olan qəsəbələr ölkədəki 18-dən 15-ni, 3 mindən 10 minədək olanlar isə 49-dan 17-ni təşkil edirdilər. Ən az əhali sayına malik olan qrupda qəsəbələrin sayı 18-dən 26-ya çatsa da, əhalinin sayı 24,3 min nəfərdən 20,3 min nəfərədək, payları isə 3,0%-dən 1,9%-dək azalmışdır. Bu qrupda əhalinin sayının azalmasının səbəbi 1999-cu ildə əhalisi 2 mindən 3 minədək olan Sulutəpə, Xocasən, Qala, Digah və Aşağı

Güzdək qəsəbələrinin əhalisinin sürətlə artaraq digər qrupa keçməsidir. Qəsəbələrin sayının artması isə Qaradağ rayonunda yeni yaradılan 11-ə qədər qəsəbə ilə bağlıdır.

1999-2012-ci illərdə əhalinin sayı Bakı və Sumqayıtda nisbətən az artdığı halda, şəhərətrafı və Abşeron rayonunun qəsəbələrində və Xırdalanda daha sürətlə artmışdır. İqtisadi rayonun ölkə şəhər əhalisinə görə payı 53,4%-dək yüksəlmişdir. Bu dövrdə demoqrafik proseslərin sürətlənməsi nəticəsində iqtisadi rayonda şəhər əhalisinin sayı 1,22 dəfə artaraq və ölkə üzrə olan 1,21 dəfəni keçərək (1-ci cədvəl) Aran və Gəncə-Qazax kimi iqtisadi rayonları üstələmişdir. Abşeronda təsərrüfatın ərazi strukturunun təkmilləşdirilməsi və demoqrafik proseslərin tənzimlənməsi dövlət idarəetmə strukturlarının həll etməli olduğu mühüm problemlərdir.

Abşeronda məskunlaşmanın təkmilləşdirilməsi aşağıdakı ən mühüm inkişaf istiqamətlərini əhatə etməlidir: 1) İstehsalın təmərküzləşməsi və sosial infrastrukturun cəmlənməsinin azaldılması hesabına demoqrafik yüklənmənin məhdudlaşdırılması; 2) Demoqrafik proseslərin xarakterinin dəyişilməsi və onun nizamlanması; 3) Ekoloji şəraitin pisləşməsi və təbiətə antropogen təsirin artması əleyhinə tədbirlərin görülməsi; 4) Kənd təsərrüfatına yararlı torpaqların şəhər ərazisinə qatılıb texnogen və mədəni (park və istirahət mərkəzləri) landşaftlara çevrilməsi; 5) Bakı aqlomerasiyasının ərazisində şəhər sərhədlərinin genişlənməsini, böyük qəsəbələrin nüvə şəhərə birləşməsini, digər qəsəbələrin statusunu dəyişərək orta və böyük şəhərlərə çevrilməsinin tənzimlənməsi.

Bakı aqlomerasiyasının probleminin səmərəli həllinə iqtisadi-coğrafi aspektdən yanaşılma daha məqsədəuyğundur. Şəhər mərkəzinin səmərəli məskunlaşdırılması üçün sosial-iqtisadi və demoqrafik potensial, landşaft-məkan və tarixilik prinsipi nəzərə alınmalıdır. Bunun üçün Bakı aqlomerasiyasına aid olan inzibati bölgü təkmilləşdirilməli, nüvə şəhərin sərhədləri reallığa uyğun dəqiqləşdirilməlidir:

– I rayon – tarixi əraziləri əhatə etməklə şəhərin nüvəsini təşkil etməlidir, artıq bura mədəniyyət, istirahət və turizm mərkəzi kimi formalaşmışdır;

– II rayona şəhərin mərkəzi, yəni 1990-cı il sərhədlərinin daxilində olan ərazilər aid edilməlidir. Buraya artıq şəhərə birləşmiş şimal-şərq və şərqdə Bakıxanov-Qaraçuxur-Yeni Günəşli-Zığ qəsəbələri ilə birləşməkdə olan Bülbülə, Əmircan, Sabunçu və Yeni Ramana; şimalda və şimal-qərbdə isə şəhərə birləşmiş Rəsulzadə, Biləcəri, Xocasən, Sulutəpə qəsəbələrini əhatə etməlidir. Qanlıgöl ətrafı və şəhərə birləşməkdə olan Binəqədi, hətta Xırdalan şəhəri, qərbdə isə Lökbatan qəsəbəsi bu sərhədlər daxilində böyük şəhər massivi adlandırılmalıdır;

– şəhərin III rayonu göllərlə əhatə olunduğu üçün göllərin təmizlənməsi, burada idman mərkəzlərinin və meşə-parkların, istirahət ocaqlarının yaradılması şəhərin landşaft-məkan kompleksinin formalaşmasına səbəb olar, həmçinin metro xəttinin bu əraziləri də əhatə etməsi, burada şəhərdən çıxarılan sənaye müəssisələrinin yenidən qurulması, şəhər əhalisinin məşğulluq probleminin həllinə kömək edər;

– şəhərin IV rayonu Bakı aqlomerasiyasının nüvəsini təşkil edərək 2 hissəyə - şərqdə Hövsan, Binə, Maştağa, Zabrat qəsəbələri və bura aid ərazilər “şərq” bölgəsi, qərbdə isə Mehdiabad, Novxanı, Sumqayıt şəhəri, Müşfiqabad, Qızıldaş, Sahil qəsəbələri və bura aid ərazilər “qərb” bölgəsi kimi adlanmalı və bu mərkəzlərdə şəhərə uyğun yenidənqurma işləri aparılmalıdır;

– şəhərin V rayonu Bakı aqlomerasiyasının sərhədlərini, yəni iqtisadi rayonun böyük hissəsini əhatə edərək, yenə də 2 hissəyə: şimal və şərqi sahilboyu əraziləri Corat, Goradil, Pirşağı, Bilgəh, Mərdəkan, Şüvəlan, Qala, Zirə və Türkanı əhatə edərək kurort-turizm bölgəsi kimi “Gülüstan” adlandırılması, yeni yaradılan Pirallahı rayonuna isə “Azad iqtisadi zona” statusu verilməsi məqsədəuyğun olardı. Aqlomerasiyanın qərbi Yaşma, Pirəküşkül, Çeyildağ, Ələt qəsəbə və kəndləri əhatə edərək cənubda sənaye-yanacaq, mərkəzdə Qaradağ-Güzdək qəsəbələri arası sənaye-tikinti materialları, şimalda Pirəküşkül – Giləzi qəsəbələri arası aqrar-sənaye zonası formalaşaraq, Bakının 2-ci əsas sənaye rayonuna çevriləcək. Bu bölgənin “Qobustan” adlanması coğrafi-tarixi məkan adı ilə bağlıdır.

**ƏDƏBİYYAT**

AZƏRBAYCAN ƏHALİSİ – 2011. 2012. DSK. Bakı. 1198s.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN 1999-CU İL SİYAHIYAALMA MATERİALLARI. 2000. I cild. DSK. Bakı. 890s.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN 2009-CU İL SİYAHIYAALMA MATERİALLARI. 2010. I cild. DSK. Bakı. 915s.

AZƏRBAYCAN RESPUBLIKASI ƏHALISININ 1991-2011-Cİ İLLƏRDƏ SAYI VƏ TƏBİİ HƏRƏKƏTİ. 1991-2011. DSK. Bakı.
BAKI ŞƏHƏRİNİN VƏ QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKIŞAFI (2011-2013). 2013. DSK-nın məcmuəsi. Bakı.
BƏDƏLOV, E.S. 2013a. Abşeron iqtisadi-coğrafi rayonunun demoqrafik problemləri. *Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş* Respublika Elmi Konfransının (BDU) materiallarında. Bakı. 286-289.
BƏDƏLOV, E.S. 2013b. Abşeron iqtisadi-coğrafi rayonunda şəhər məskunlaşmasının inkişafında miqrasiya proseslərinin rolu. *Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri*, Bakı, 339-342.
EMİNOV, Z.N. 2010. Abşeron iqtisadi rayonunda təsərrüfatın və əhalinin təmərküzləşməsinin iqtisadi, sosial-demoqrafik problemləri. *Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XV,* 253-257.
EMİNOV, Z.N. 2005. Azərbaycanın əhalisi. Bakı. 558s.
MEHRƏLIYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Elm. Bakı. 192s.
НЕКОТОРЫЕ ДЕМОГРАФИЧЕСКИЕ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ПОКАЗАТЕЛИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ЗА 10 ЛЕТ. 1991. Баку. 257с.

***Məqaləyə c.e.n. Z.N.Eminov rəy vermişdir***